**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN DETEKTİV NƏSRİNİN FORMALAŞMASI VƏ İNKİŞAFI (CƏMŞİD ƏMİROVUN YARADICILIĞI ƏSASINDA)

İxtisas: 5716.01– Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Seyidnisə Bəxtiyar qızı Lətifli**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2025**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun XX əsr (sovet dövrü) Azərbaycan ədəbiyyatı şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**Aygün Ağabağır qızı Bağırlı** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, dosent<br>**Esmira Seyfəl qızı Fuad** |
| | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**Razim Əli oğlu Məmmədli** |
| | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**Ələmdar Qənbər oğlu Bayramov** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ____________ | AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor<br>**İsa Əkbər oğlu Həbibbəyli** |
| Dissertasiya şurasının elmi katibi: ____________ | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**İsmixan Məhəmməd oğlu Osmanlı** |
| Elmi seminarın sədri: ____________ | filologiya elmləri doktoru, professor<br>**İmamverdi Yavər oğlu Həmidov** |

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Ədəbiyyatda qədim dövrlərdən etibarən müxtəlif formalarda müşahidə olunan detektiv elementlər zamanla inkişaf edərək dərin və çoxşaxəli bir istiqamət qazanmışdır. Dünyada urbanizasiyanın sürətlənməsi, cinayət hadisələrinin artması, hüquq-mühafizə orqanlarının fəaliyyətinin genişlənməsi, oxucu auditoriyasının artan marağı detektiv nəsrin inkişafına stimul vermiş və bu mövzuda olan bədii nümunələrin artmasına zəmin yaratmışdır. Bu sahədə dünya ədəbiyyatının qabaqcıl estetik ənənələri, ideya və mövzu prinsipləri mənimsənilmiş, eyni zamanda milli xüsusiyyətlərin qorunması və təbliği də mühüm istiqamət kimi inkişaf etdirilmişdir. Azərbaycan ədəbiyyatının dünya ədəbiyyatı ilə inteqrasiyası, ayrı-ayrı dövrlərdə ümumdünya ədəbi prosesinin uğurlu ənənələrindən yararlanması detektiv nəsrin inkişafına da öz təsirini göstərmişdir.

Detektiv əsərlərin mahiyyətini müəmmalı cinayətin sistemli araşdırılması və faktların məntiqi təhlil vasitəsilə analizi təşkil edir. Bu əsərlər təkcə maraqlı və gərgin süjet təqdim etməklə kifayətlənmir. Oxucuların düşünmə və analiz qabiliyyətlərini stimullaşdırır, hadisələr arasındakı səbəb-nəticə əlaqələrini araşdırmağa, izləri birləşdirərək məntiqi qənaətlərə gəlməyə təşviq edir, bu amillər həm də intellektual bacarıqların inkişafına xidmət göstərir. Bu əsərlərə göstərilən diqqət yalnız sirr və qeyri-müəyyənliyə yönəlmiş maraqla izah olunmur, bu populyarlıq eyni zamanda analitik təfəkkürə əsaslanan süjet strukturunun qurulması, ədalətin bərpası ideyasının qabardılması, sosial və psixoloji dərinliklərin təsviri, eləcə də xarakter baxımından orijinal qəhrəman obrazlarının təqdim olunması ilə şərtlənir. Buna görə də detektiv ədəbiyyatın tədqiqi müasir elmi tədqiqatlarda aktual mövzu kimi önə çıxır.

Müasir dövrdə populyarlığı artan detektiv nəsr təkcə əyləncə məqsədi daşımır, eyni zamanda cəmiyyətin hüquqi, əxlaqi və sosial problemlərini əks etdirən ciddi ədəbi forma kimi çıxış edir. Detektivin çağdaş dövrümüzdə geniş yayıldığını və oxucu marağını nəzərə aldıqda, onun necə meydana gəldiyini, hansı tarixi və ədəbi

köklərə söykəndiyini araşdırmaq zərurəti ortaya çıxır. Belə bir araşdırma detektiv ədəbiyyatın keçdiyi yolun mərhələlərini, milli xüsusiyyətlərlə necə zənginləşdiyini və ədəbi-estetik baxımdan hansı dəyişikliklərə uğradığını izləməyə imkan verir.

Tarixi inkişaf mərhələlərində qarşıya çıxan ideoloji və sosial məhdudiyyətlərə baxmayaraq, detektiv nəsr özünəməxsus bədii forma və problematikasını qoruyub saxlamış, zamanla dəyişən ictimai reallıqlara uyğun olaraq təkamül mərhələsi keçmişdir.

Azərbaycan ədəbiyyatında detektiv nəsrin əsasını qoyan Cəmşid Əmirovun fəaliyyəti sosial-ideoloji baxımdan çətin dövrə təsadüf edir. Ədib bütün məhdudiyyətlərə və çətinliklərə baxmayaraq, müxtəlif aspektlərdən əhəmiyyət kəsb edən detektiv əsərlər yazmışdır. Onun yaradıcılığı yalnız bədii ədəbiyyatda deyil, həmçinin kino sahəsində də geniş təcəssüm tapmışdır. Ədibin əsərləri kino vasitəsilə daha geniş auditoriyaya çatdırılmış, insanların ədəbi-estetik zövqünə və mənəvi dünyasına dərin təsir göstərmiş, həm ölkə daxilində, həm də beynəlxalq miqyasda yüksək nüfuz qazanmışdır. Əsərlərinin müxtəlif dillərə tərcümə olunaraq böyük tirajlarla çap edilməsi, onun yaradıcılığına olan geniş marağın göstəricilərindəndir.

Cəmşid Əmirovun əsərləri bədii baxımdan güclü təsirə malik olduğu üçün bu gün də müasir oxucunun marağını cəlb edə bilir. Əsərlərində insanın daxili dünyası, cəmiyyətin sosial problemləri və ədalət axtarışı ustalıqla canlandırılmışdır. Onun detektiv mövzuda yazılmış əsərləri zaman keçdikcə aktuallığını itirmir, əksinə, hər dövrdə oxucunun mənəvi dünyasına təsir göstərir. Beləliklə, əsərlərinin müasir dövrdə də aktuallığını qoruyub saxlaması yazıçının sənətinin həm ədəbi, həm də ictimai əhəmiyyətini daha da gücləndirir.

Azərbaycan ədəbiyyatında detektiv nəsrin formalaşması və inkişafı, Cəmşid Əmirovun həyatı və yaradıcılığı, əsərlərinin nəzəri baxımdan təhlili ilə bağlı tədqiqatların sayı məhduddur. Tədqiqat işinin ayrı-ayrı istiqamətləri üzrə araşdırmalar aparılsa da, sistemli şəkildə təhlilə cəlb olunmamışdır. Bu mövzu ilə bağlı Azərbaycan ədəbiyyatşünaslığında Samirə Mirbağırova “Azərbaycan

ədəbiyyatında detektiv janr (dünya ədəbiyyatı kontekstində)”[1], İlhamə Məmmədova “Müasir ABŞ və Azərbaycan ədəbiyyatında detektiv janrının yeni çalarları”[2], Cəmilə Abbasova “Azərbaycan ədəbiyyatında detektiv janrı”[3], Təbəssüm Muxtarova “Müasir detektiv janrında qəhrəmanın mənəvi aləminin təsviri (Çingiz Abdullayevin yaradıcılığı əsasında)”[4] adlı tədqiqatlar aparmışlar. Türkiyədə isə bu mövzuda Gonca Karadağ tərəfindən “Azerbaycan edebiyatında polisiye roman: Cemşid Emirov eserleri”[5] adlı magistr dissertasiyası yazılmışdır. Aslan Qasımlının Cəmşid Əmirovun əsərlərinin nəşrində böyük xidmətləri olmuş, kitablarına ön söz yazmış və mətbuatda “Detektiv yazıçı haqqında düşüncələr”, “Gənc işçi”dən “Bakı”yadək...” adlı məqalələr dərc etdirmişdir. Dünya ədəbiyyatında da detektiv ilə bağlı araşdırmalar mövcuddur. Gilbert Kit Çesterton, Ronald Knox, Van Dayn, Tzvetan Todorov, Ernest Mandel, Arkadi Qriqoryeviç Adamov və başqaları detektiv janr ilə bağlı əhəmiyyətli elmi müddəalar irəli sürmüşlər.

Yuxarıda adıçəkilən tədqiqatlarda Cəmşid Əmirovun yaradıcılığının müəyyən tərəfləri işıqlandırılsa da, bu dissertasiyada yazıçının bədii irsi daha dərindən və kompleks yanaşma prinsipləri əsasında araşdırılmışdır. Həmçinin folklor nümunələrindən müasir bədii əsərlərə qədər Azərbaycan ədəbiyyatında detektiv elementlərin formalaşma və inkişaf mərhələləri tədqiq edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyektini Cəmşid Əmirovun yaradıcılığı kontekstində Azərbaycan

---

[1] Мир-Багирова, С. А. Детективный жанр азербайджанской литературе в контексте мировой литературы: / доктор философии по филологии дис. / – Баку, – 1998. – 185 с.

[2] Məmmədova, İ.M. Müasir ABŞ və Azərbaycan ədəbiyyatında detektiv janrın yeni çalarları : / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Naxçıvan, 2010. – 22 s.

[3] Аббасова, Ж.Ж. Детективный жанр в Азербайджанской литературе: / доктор философии по филологии дис. / – Баку, 2016. –150 с.

[4] Muxtarova, T.D. Müasir detektiv janrında qəhrəmanın mənəvi aləminin təsviri (Çingiz Abdullayevin yaradıcılığı əsasında): / filologiya üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2021. – 148 s.

[5] Karadağ, G. Azerbaycan edebiyatında polisiye roman: Cemşid Emirov eserleri. Yüksek lisans tezi. Kars, 2022. – 198 s.

ədəbiyyatında detektiv nəsrin formalaşması və inkişafı məsələləri təşkil edir.

Tədqiqatın predmetini Cəmşid Əmirovun həyat və yaradıcılığının arxiv materialları əsasında ətraflı şəkildə öyrənilməsi, yazıçının məqalə, povest və romanlarının təhlili təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın əsas məqsədi Cəmşid Əmirovun yaradıcılığı əsasında Azərbaycan ədəbiyyatında detektiv nəsrin formalaşma və inkişaf prosesini, həmçinin yazıçının əsərlərinin özünəməxsus xüsusiyyətlərini tədqiq etməkdən ibarətdir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin həlli nəzərdə tutulur:

- Dünya ədəbiyyatında detektiv janrın yaranmasına səbəb olan zəruri sosial şərtləri müəyyənləşdirmək;
- Azərbaycan detektiv nəsrinin yaranması və tarixi köklərini araşdırmaq;
- Dövrün ictimai-siyasi, ədəbi-mədəni mühiti və tarixi təcrübəsi müstəvisində Azərbaycan ədəbiyyatında detektiv nəsrin formalaşmasını tədqiq etmək;
- Cəmşid Əmirovun həyatını və ədəbi fəaliyyətinin əsas mərhələlərini öyrənmək;
- Yazıçının detektiv nəsrinin mövzu, ideya və bədii xüsusiyyətlərini təhlil etmək;
- Cəmşid Əmirovun əsərlərinin detektiv xüsusiyyətlərinin tədqiqi və dünya ədəbiyyatındakı detektiv nümunələrlə əlaqələndirərək qarşılıqlı təsirlərini müəyyənləşdirmək;
- Ədibin əsərləri əsasında detektiv nəsrdə psixologizmin ifadə formalarını təyin etmək;
- Cəmşid Əmirovun əsərlərində əsas obrazlar sisteminin və ləqəblərin funksiyasını aydınlaşdırmaq.

**Tədqiqat metodları.** Tədqiqat işində tarixi-müqayisəli metoddan istifadə etməklə, Azərbaycan ədəbiyyatında detektiv nəsrin yaranma və inkişaf mərhələləri tarixi aspektdən analiz olunmuşdur. Bu metod vasitəsilə həm milli, həm də dünya ədəbiyyatında detektiv nəsrin formalaşma prosesləri müqayisəli şəkildə araşdırılmışdır. Analitik-tipoloji metod isə əsərlərin ideya-məzmun xüsusiyyətlərinin, bədii struktur elementlərinin və detektiv

nəsrin tipik xüsusiyyətlərinin əhatəli təhlilini mümkün etmiş, müxtəlif növ detektiv əsərlərin oxşar və fərqlilikləri sistemli şəkildə müəyyənləşdirilmişdir. Bu metodların kombinasiyası tədqiqat mövzusunun həm tarixi, həm də struktur baxımından hərtərəfli və obyektiv şəkildə dəyərləndirilməsinə imkan yaratmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

– Azərbaycan detektiv nəsrinin inkişafı dünya ədəbiyyatındakı tendensiyalarla sıx bağlıdır. Bu əlaqə detektiv nəsrin formalaşmasında həm ümumi, həm də spesifik milli xüsusiyyətlərin yaranmasında əhəmiyyətli rol oynamışdır;

– Azərbaycan ədəbiyyatında detektiv nəsrin inkişafına dövrün ictimai-siyasi və ədəbi-mədəni mühiti mühüm təsir göstərmişdir;

– Cəmşid Əmirovun həyat və yaradıcılığının dərindən öyrənilməsi onun Azərbaycan detektiv nəsrinin təşəkkül və inkişaf dinamikasındakı mövqeyini, milli xüsusiyyətlərini aydınlaşdırmaq baxımından mühüm əhəmiyyət daşıyır;

– Detektiv mətnin struktur xüsusiyyətləri və yazıçının fərdi üslubu əsərin ideyasının bədii təqdiminə mühüm təsir göstərmişdir;

– Cəmşid Əmirovun detektiv əsərlərində olduqca mühüm yer tutan psixologizm obrazın daxili aləminin, mənəvi təlatümlərinin, hiss və düşüncələrinin təhlilinə geniş imkanlar açmışdır;

– Detektiv əsərlərdə obrazların fərdiləşdirilməsində ləqəblər mühüm funksiyaya malikdir, onlar personajların xarakterini və sosial mövqeyini vurğulayır, onların yaddaqalan obrazlara çevrilməsinə şərait yaradaraq, əsərin bədii təsirini gücləndirir;

– Cəmşid Əmirovun detektiv əsərlərində əsas obrazlar qalereyası – müstəntiq, cinayətkar, qurban və köməkçi obrazlar bir-biri ilə qarşılıqlı əlaqədə olub, əsərin süjet xəttinin inkişafını təmin etmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan ədəbiyyatında Cəmşid Əmirovun həyatı və yaradıcılığı müstəqil elmi araşdırma obyekti kimi seçilən – “Azərbaycan detektiv nəsrinin formalaşması və inkişafı (Cəmşid Əmirovun yaradıcılığı əsasında)” adlı dissertasiyada aşağıdakı yeniliklər əldə edilmişdir:

– Azərbaycan ədəbiyyatında detektiv nəsrin tarixi inkişaf mərhələləri dissertasiya işində sistemli və ardıcıl şəkildə analiz edilərək elmi əsaslarla işlənmişdir;
– Yazıçının publisistik fəaliyyəti dissertasiya işində tədqiqata cəlb edilmişdir;
– Dissertasiya işində ədibin əsərləri detektiv nəsrin xarakterik xüsusiyyətləri əsasında kompleks və çoxaspektli təhlilə cəlb olunmuşdur;
– "Tək əldən səs çıxar" və "Olub-Olub" povestləri, "Vətəndən uzaqlarda" romanı haqqında ilk dəfə bu tədqiqatda bəhs edilmişdir;
– Tədqiqat zamanı ideya və məzmun baxımından oxşar olan dünya detektiv ədəbiyyatı nümunələri ilə Cəmşid Əmirovun əsərləri müqayisəli təhlil olunmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Cəmşid Əmirovun yaradıcılığının sistemli şəkildə araşdırılması Azərbaycan detektiv ədəbiyyatının tədqiqində mühüm elmi mənbə kimi istifadə oluna bilər. Tədqiqat işi elmi-nəzəri baxımdan detektiv nəsrin tədqiqi üçün əsas vəsait kimi qiymətləndirilməklə bərabər, həm də yeni elmi yanaşmaların formalaşması və gələcək araşdırmalar üçün zəngin baza rolunu oynaya bilər. Çünki hazırda Azərbaycan ədəbiyyatında detektiv ilə bağlı mənbə azlığı mövcuddur. Bu tədqiqat işi həmin problemin aradan qaldırılmasında xüsusi əhəmiyyət kəsb edir. Praktiki baxımdan, dissertasiyanın nəticələri Azərbaycan ədəbiyyatı üzrə tədris materiallarının hazırlanmasında, xüsusən də detektiv nəsrin dərslik və metodik vəsaitlərdə əhatəli şəkildə işıqlandırılmasında faydalı ola bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiyanın mövzusu AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "XX əsr (sovet dövrü) Azərbaycan ədəbiyyatı" şöbəsində müəyyən edilmişdir.

Dissertasiyanın fəsilləri ayrı-ayrılıqda şöbənin iclaslarında müzakirə olunmuşdur. Tədqiqatın əsas müddəa və nəticələri iddiaçının Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi jurnallarda, həmçinin xarici ölkələrin nüfuzlu məcmuə və jurnallarında, o cümlədən beynəlxalq xülasələndirmə və indeksləmə sisteminə daxil olan

(Copernicus) dövri elmi nəşrlərdə, ölkədaxili və xaricdə keçirilən beynəlxalq konfransın materiallarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "XX əsr (sovet dövrü) Azərbaycan ədəbiyyatı" şöbəsində yerinə yetirilmiş, şöbənin tədqiqat istiqamətinə uyğun olaraq tamamlanmışdır.

**Dissertasiya işinin strukturu və ümumi həcmi.** Dissertasiya işi giriş (11001 şərti işarə), 3 fəsil (birinci fəsil iki paraqraf – 52 100 şərti işarə, ikinci fəsil iki paraqraf – 58 800 şərti işarə, üçüncü fəsil üç paraqraf – 84 920 şərti işarə, nəticə (4091 şərti işarə) və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işinin ümumi həcmi 210 912 şərti işarədir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **Giriş** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsindən bəhs edilmiş, tədqiqatın məqsəd və vəzifələri, metodları müəyyən edilmiş, müdafiəyə çıxarılan əsas müddəalar, dissertasiya işinin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti əsaslandırılmışdır.

Dissertasiya işinin **"Detektiv nəsrin təşəkkülü və inkişaf istiqamətləri"** adlı birinci fəsli iki paraqrafdan ibarətdir.

Bu fəslin **"Dünya ədəbiyyatında detektiv nəsrin formalaşması və inkişaf mərhələləri"** adlı birinci paraqrafında dünya ədəbiyyatında detektiv nəsrin təşəkkülü və formalaşması, yaranma səbəbləri, tarixi inkişaf mərhələləri, ilkin nümunələri və detektiv janrın müxtəlif ölkələrdəki spesifik xüsusiyyətləri müqayisəli təhlil əsasında araşdırılmışdır.

Bədii və dini mətnlərdə cinayət motivləri insan və cəmiyyət arasındakı münaqişələri əks etdirir. Bu baxımdan, dini mətnlərdə yer alan günah, günahkarın axtarışı, cəza və ədalət kimi anlayışlar sonradan detektiv nəsrə xas olacaq motivlərin ilkin forması kimi qiymətləndirilə bilər. Həmin mətnlərdə bir hadisənin səbəbinin araşdırılması, günahkarın kimliyinin müəyyənləşdirilməsi və

ədalətin təmin olunması müasir detektiv süjetlərin strukturuna çox oxşardır.

Detektiv ədəbiyyatın müstəqil janr olaraq formalaşması müəyyən sosial-tarixi şəraitin nəticəsidir. XIX əsrdə dünyada sənaye inqilabının təsiri ilə şəhərlərdə əhali sıxlığı artmış, yeni sosial təbəqələr yaranmış və bu da cinayətkarlığın çoxalmasına səbəb olmuşdur. Cəmiyyət cinayətin necə baş verdiyini və günahkarın necə tapılıb cəzalandırılmasını öyrənməyə maraq göstərirdi və bu da detektiv əsərlərin ortaya çıxmasına zəmin yaradırdı.

Dünya ədəbiyyatında detektiv nəsrin əsası  ilk dəfə Amerika romantizminin görkəmli nümayəndəsi Edqar Allan Po tərəfindən qoyulmuşdur. Onun yaradıcılığı özündən sonra detektiv nəsrin inkişafına ciddi təsir etmişdir. İngilis ədəbiyyatında Uilyam Uilki Kollinz, Villiam Russel, Artur Konan Doyl, Aqata Kristi, Amerika ədəbiyyatında Enn Ketrin Qrin, fransız ədəbiyyatında Emil Qaborio, Belçika ədəbiyyatında Jorj Simenon və başqaları detektiv mövzuda maraqlı əsərlər qələmə almışlar.

Detektiv janr XIX əsrin ortalarından etibarən dünya ədəbiyyatında özünəməxsus yer tutmağa başlamış, zaman keçdikcə həm məzmun, həm də forma baxımından inkişaf edərək ədəbi ənənəyə çevrilmişdir. Bu inkişaf prosesi yalnız bədii nümunələrin artması ilə deyil, eyni zamanda janra dair müxtəlif nəzəri yanaşmaların formalaşması ilə də müşayiət olunmuşdur.

Keçmiş Sovetlər Birliyində detektiv, mahiyyət etibarilə fərdi təşəbbüsə, azad düşüncəyə əsaslandığına və sistemin qüsurlarını əks etdirdiyinə görə kommunist ideologiyasının prinsiplərinə uyğun gəlmirdi. Sosializm rejimində cəmiyyətin qüsursuz və intizamlı göstərilməsi əsas ideoloji xətt olduğundan, cinayət hadisələrini, sosial ziddiyyətləri və fərdi davranışları araşdıran detektiv ədəbiyyat rəsmi şəkildə dəstəklənməmişdir. Bu səbəbdən də detektiv janr Sovet ədəbiyyatında geniş yayılmamış və ciddi ideoloji nəzarət altında məhdudlaşdırılmışdır.

Bu fəslin **“Azərbaycan detektiv nəsrinin tarixi və təşəkkülü”** adlanan ikinci paraqrafında Azərbaycan ədəbiyyatında detektiv nəsrin formalaşması və inkişaf mərhələləri sistemli şəkildə tədqiq olunmuşdur.

Azərbaycan ədəbiyyatının müxtəlif inkişaf mərhələlərinə aid ədəbi nümunələrdə detektivin təzahür formalarına rast gəlinir. Şifahi xalq ədəbiyyatının müxtəlif növ və janrlarında nağıl, əfsanə, dastan və atalar sözlərində yer alan detektiv ünsürlər araşdırılmışdır. "Məlikməmməd", "Kiçik şahzadə", "Üç şahzadə", "Şahzadə Mütalib", "İbrahimin nağılı", "Daşdəmirin nağılı", "Üç bacı" nağılları, "Oğrunu oğruyla tutarlar", "Kasıblıq eyib deyil, oğurluq eyibdir", "Xeyir bir qopar, şər onu min qovar" atalar sözləri, "Çahargah əfsanəsi", "Fərhad və Şirin əfsanəsi", "Ədalətli Ənuşirəvan" əfsanələri, "Qaçaq Nəbi", "Qaçaq Kərəm", "Abbas və Gülgəz", "Aşıq Qərib" dastanları və s. örnəklərdə tez-tez rast gəlinən sirli hadisələr, günahkarın və gizli niyyətlərin ifşası, haqsızlıqla mübarizə, xeyrin şər üzərində qələbəsi və ədalətin bərpası və s. elementlər detektivin ilkin nümunələri kimi təqdim olunur. Bu nümunələr göstərir ki, detektiv Azərbaycan ədəbi düşüncəsində dərin köklərə malikdir və yazılı ədəbiyyat formalaşmazdan əvvəl də xalq şüurunda mövcud olmuşdur.

İstər lirik, istər epik, istərsə də dramatik janr nümunələrində detektivin əlamətlərini görmək mümkündür. "Kitabi-Dədə Qorqud" dastanından başlayaraq, Xaqani Şirvani, Nizami Gəncəvi, Məhəmməd Füzuli, Molla Vəli Vidadi, Molla Pənah Vaqif və digər klassiklərimizin əsərlərində bu mövzuya müraciət olunmuşdur. Həmin əsərlərdə ədalətin təntənəsi, zülmə və haqsızlığa qarşı mübarizə, hökmdar və xalq arasındakı münasibətlər, insanların nəfs və hərislik ucbatından törətdikləri əməllər, eləcə də bu kimi halların doğurduğu nəticələr təsvir olunmuşdur.

XIX əsr Azərbaycan nəsri, əsasən, insan azadlığı ideyasına əsaslanaraq cəmiyyətdə köhnəlmiş düşüncə tərzinə, zərərli ənənə və vərdişlərə, ədalətsizlik və zorakılığa qarşı çıxış etmişdir. Nəcəf bəy Vəzirov, Mirzə Fətəli Axundzadə, Nəriman Nərimanov, Süleyman Sani Axundov və başqa ədiblərimizin yaradıcılığında oğurluq, qətl, quldurluq tənqid obyektinə çevrilmiş, sosial ədalətsizlik və cəhalətə qarşı mübarizə ideyası ön plana çəkilmişdir.

XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı təkcə ictimai-siyasi və iqtisadi dəyişikliklərin təsiri ilə deyil, həm də yeni ədəbi ideyalar, cərəyanlar və formalarla zənginləşmişdir. Bu dövrün ədəbi

nümunələrində də detektiv süjetə xas olan müəmmalı hadisələr, cinayət və onun səbəblərinin araşdırılması, günahkarın ifşası kimi hadisələrə yer verilmişdir. Əbdürrəhim bəy Haqverdiyev, Hüseyn Cavid, Süleyman Sani Axundov, Cəfər Cabbarlı və digər yazıçıların əsərlərində cinayət, qətl və insanlıq faciəsi ilə bağlı süjetlər canlandırılmış, bu cür hadisələr bədii şəkildə cəmiyyətin mənəvi problemləri fonunda işıqlandırılmışdır.

Azərbaycan ədəbiyyatının sovet ideologiyasının təsiri altında olması detektiv mövzuda yazılan əsərlərin əhatə dairəsinin məhdudluğuna gətirib çıxarmışdır. Çünki bu mövzuda yazılmış əsərlərə xüsusi nəzarət var idi. Detektiv əsərlər cəmiyyətdəki ziddiyyətləri və cinayətləri təsvir etməyə imkan versə də, sovet dövründə bu, ictimai harmoniyanı pozan bir hal kimi qəbul olunur, kommunist ideologiyasının tələblərinə uyğun gəlmirdi. Kommunist ideologiyası sinifsiz, bərabər və ədalətli bir cəmiyyət vəd etsə də, müxtəlif növ cinayətlər və sosial çətinliklər hələ də mövcud idi. Bu cinayətlərin ədəbiyyatın mövzusu olması isə çox da məqbul hesab edilmirdi.

Bu dövrdə ədəbiyyatımızda müəyyən məhdudiyyətlər olmasına baxmayaraq detektiv nəsr formalaşmağa başlamış və Cəmşid Əmirovun bu istiqamətdə rolu böyükdür. Cəmşid Əmirov 1957-ci ildə “Sahil əməliyyatı”[6] povestini çap etdirməklə ədəbiyyatımızda detektiv nəsrin əsasını qoymuşdur. Yazıçı bundan sonra bir-birinin ardınca “Brilyant məsələsi”[7] (1963), “Qara Volqa”[8] (1966 ), “Tək əldən səs çıxar” (1968), “Olub, olub”, “Mənim əsl məhəbbətim” (1969), “Vətəndən uzaqlarda”[9] (1969), “Şəhər yatarkən”[10] (1988) adlı povest və romanlarını qələmə almışdır. O, bu əsərlərdə müxtəlif cinayət hadisələrini təsvir etməklə yanaşı, istintaq prosesini də məntiqi ardıcıllıq və daxili səbəb-nəticə əlaqələri

[6] Əmirov, C. Sahil əməliyyatı. Bakı: Azərnəşr, – 2007. 308 s.
[7] Əmirov, C. Brilyant məsələsi. Bakı: Azərnəşr, – 1963, 327 s.
[8] Əmirov, C. Qara Volqa. Bakı: Qanun, – 2017. – 410 s.
[9] Əmirov, C. Vətəndən uzaqlarda. Bakı: Azərnəşr , – 2009. – 364 s.
[10] Əmirov, C. Şəhər yatarkən (povestlər). Bakı: Yazıçı, – 1982. – 197 s.

çərçivəsində təqdim edərək, detektiv nəsrin əsas prinsiplərini uğurla tətbiq etmişdir.

Cəmşid Əmirovla eyni dövrdə fəaliyyət göstərən Həsən Seyidbəyli "Cəbhədən-cəbhəyə"[11] (1961), İmran Qasımov və Həsən Seyidbəylinin birgə müəllifi olduqları "Uzaq sahillərdə"[12] (1954), eləcə də Zeynal Babayevin "Bir cinayətin izi ilə"[13] (1958) əsərləri detektiv nəsrin inkişafına əhəmiyyətli təsir göstərmişdir.

Bu paraqrafda müasir dövr detektiv ədəbiyyatının mənzərəsini əks etdirmək üçün müxtəlif müəlliflərin əsərləri araşdırılmış və janrın hazırkı inkişaf xüsusiyyətləri müəyyənləşdirilmişdir. Müasir dövrdə detektiv nəsrin yeni istiqamətləri və növlərinin formalaşması janrın əvvəlki dövrlərdən, xüsusilə sovet dövründən əsaslı fərqlərini ortaya qoyur. Ən önəmli amil dövrün ictimai-siyasi şəraitində və oxucu tələbatında baş verən dəyişikliklərdir. Sovet dövründə detektiv mövzulu əsərlərə qadağalar tətbiq olunur, mövzu və təsvir üsulları ciddi senzura ilə məhdudlaşdırılır, cəmiyyətdəki mövcud problemlərin açıq şəkildə əks olunmasına şərait yaradılmırdı. Bu isə detektiv ədəbiyyatın inkişafına ciddi əngəl yaradırdı. Müasir dövrdə məhdudiyyətlərin aradan qalxması nəticəsində detektiv əsərlərdə mövzu müxtəlifliyi artmış, cəmiyyətin problemlərinə daha dərin və çoxşaxəli yanaşma üçün şərait yaranmışdır. Bu paraqrafda müasir dövrün detektiv ədəbiyyatı ilə bağlı Çingiz Abdullayevin "Bir ümman nifrət"[14], Kamran Qasımovun "Mirassız varislər"[15], Ceyhun Hidayətlinin "Qarlar arasında ölüm"[16], Firuz Mustafanın "Çəhrayı tunel"[17], Natiq Rəsulzadənin "İntihar edənin qeydləri"[18], İlqar Fəhminin

---

[11] Seyidbəyli, H. Cəbhədən-cəbhəyə. Bakı: Xan, – 2025. – 589 s.
[12] Qasımov, İ, Seyidbəyli, H. Uzaq Sahillərdə. Bakı: Xan, – 2019. – 305 s.
[13] Babayev, Z. Bir cinayətin izi ilə. Bakı: Uşaqgəncnəşr, – 1959. – 73 s.
[14] Abdullayev, Ç.A. Bir ümman nifrət. Bakı: Çıraq, – 2004. – 142 s
[15] Qasımov, K. Bakı: Zero, OL MMC, – 2014. – 126 s.
[16] Hidayətli, C. M. Qarlar arasında ölüm. Bakı: Mayak, – 2017. – 202 s.
[17] Mustafayev, F.Q. Detektiv povestlər. Bakı: Renessans-A, – 2020. – 344 s.
[18] Расул-заде, Н. Р. Записки самоубийцы. Баку: Гянджлик, – 1990. – 110 с.

"Aktrisa"[19], Elxan Elatlının "Bakıdan gələn xəfiyyə"[20] əsərləri təhlilə cəlb olunmuşdur.

Tədqiqat işinin bu fəslində əldə edilən əsas elmi nəticələr aşağıdakı məqalələrdə öz əksini tapmışdır[21].

Tədqiqat işinin **"Cəmşid Əmirov və detektiv nəsrinin özünəməxsus xüsusiyyətləri"** adlı ikinci fəsli iki paraqrafdan ibarətdir.

Fəslin **"Cəmşid Əmirovun həyatı və yaradıcılığı"** adlanan ilk paraqrafında yazıçının həyatı, yaradıcılığı və fəaliyyət göstərdiyi dövrün ictimai-mədəni mühiti arxiv materialları, dövrün mətbuatı, şəxsi sənədlər və digər yazılı mənbələr əsasında sistemli şəkildə araşdırılmışdır. Tədqiqat zamanı müəllifin yalnız bədii yaradıcılığı deyil, onun ədəbi prosesdəki rolu, müasirləri ilə münasibətləri, cəmiyyətə və dövrün hadisələrinə yanaşması da geniş şəkildə təhlil olunmuşdur. Yazıçının publisistik fəaliyyəti bu tədqiqatda ilk dəfə olaraq ayrıca elmi araşdırma predmeti kimi götürülmüş və onun publisist yazılarındakı mövzu seçimi, dil və üslub xüsusiyyətləri, dövrün problemlərinə yanaşma tərzi analitik şəkildə təhlil olunmuşdur. Bu yanaşma yazıçının şəxsiyyətini və yaradıcılıq dünyasını daha dolğun anlamağa imkan yaratmışdır.

Yazıçı 1946-cı ildə Sovet ordusu sıralarından tərxis edildikdən sonra "Azərbaycan gəncləri", "Bakı", "Sovet ticarəti", "Azərbaycan neft təsərrüfatı" qəzetlərində fəaliyyət göstərmiş, müxtəlif oçerk və məqalələr dərc etdirmişdir. Ədibin "Birincilik uğrunda", "İradə və qüvvət", "Ən qüvvətli boksçuların görüşləri", "Qayğısızlığın pis nəticələri", "Gənclərin bədən tərbiyəsinə ciddi

---

[19] Fəhmi, İ. Aktrisa. Bakı: Adiloğlu, – 2006. – 160 s.

[20] Elatlı ,E.Ə. Bakıdan gələn xəfiyyə. Bakı: MBM-R, – 2009, 246 s.

[21] Lətifli, S.B. Azərbaycan ədəbiyyatında detektiv nəsrin formalaşmasına bir nəzər. Dil və ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal 3(117). Bakı, 2021. s.529-531.; Dünya ədəbiyyatında detektiv nəsrin tarixi mərhələlərinə elmi-nəzəri baxış. Dil və ədəbiyyat: Beynəlxalq elmi-nəzəri jurnal 3(120). 2022. s.206-209.; Sıgns of Jamshıd Amırov`s detectıve. Вчені записки ТНУ імені В. І. Вернадського. Серія: Філологія. Журналістика Том 34 (73) № 5, 2023. с.174-178.; Cəmşid Əmirov detektiv nəsrin nümayəndəsi kimi. Azərbaycan ədəbiyyatşünaslığı. 2024, N:1. s.121-127.

fikir verməli”, “Fırıldaqçı müfəttiş”, “Fırıldaqçı Tələtin cinayətkarlığı”, “Araq və şərab düşkünləri”, “Müdir kef edir”, “Gecə şəhəri gəzərkən”, “Kimdir müqəssir”, “Nə əkərsən, onu biçərsən” və s. kimi müxtəlif mövzulara həsr etdiyi oçerk və məqalələri vardır. Mətbuat sahəsindəki fəaliyyəti onun bədii şüurunun formalaşmasına, ədəbi yaradıcılığa meyillənməsinə təsir göstərmişdir. Yazıçının ilk mətbu əsəri – “Dəqiqələr, saniyələr...” adlı oçerki “Azərbaycan gəncləri” qəzetinin 28 avqust 1946-cı il sayında dərc olunmuşdur.

Cəmşid Əmirovun hüquq-mühafizə orqanları ilə əməkdaşlığı və cinayət işlərini yaxından izləməsi, ona əsərlərində real faktlara əsaslanmağa imkan vermişdir. Azərbaycan ədəbiyyatında detektiv nəsrin təşəkkülü və formalaşmasında özünəməxsus rolu olan ədib təxminən qırx illik yaradıcılığı dövründə oçerk, felyeton, povest və roman janrlarında yazmışdır.

Bu fəslin “**Yazıçının detektiv nəsrinin sosial-psixoloji aspektləri”** paraqrafında isə psixologiya və ədəbiyyatın qarşılıqlı əlaqəsi, bu sahədə aparılmış elmi araşdırmalar, Cəmşid Əmirovun əsərlərində istifadə etdiyi psixoloji detallar və onların funksiyası araşdırılmışdır.

Ədəbiyyat və psixologiya elmi arasında ortaq məqamlardan ən başlıcası insandır. Hər iki sahə insanın duyğularını, düşüncələrini, davranışlarını və ruhi vəziyyətlərini anlamağa çalışır. Cəmşid Əmirov psixoloji detallardan ustalıqla istifadə edərək əsərlərində insanın daxili aləmi, mənəvi təlatümləri, hiss və düşüncələrinin təhlilinə geniş yer vermişdir.

Yazıçı əsərlərində obrazların psixoloji durumu, təfəkkürü, fəlsəfi düşüncələri, keçmişi həyatı, həmçinin müstəntiqlərin deduktiv təhlil prosesini açıqlamaq üçün daxili monoloqlara müraciət etmişdir.

Detektiv əsərlərdə cinayətkarın portretinin yaradılmasının əhəmiyyəti istintaq zamanı cinayətin izlərinin tapılmasında mühüm rol oynayır.

Cəmşid Əmirovun əsərlərindəki təbiət təsvirləri obrazın daxili dünyasına dərindən nüfuz edərək, onun ruh halını və xarakterini ətraflı açmaq üçün mühüm bir vasitə kimi çıxış edir.

Ədibin yaradıcılığında dialoq yüksək məlumat məzmununa malikdir. O, süjeti inkişaf etdirir, obrazlar arasındakı münasibətləri

açır, onların davranış xəttini müəyyənləşdirir. Yazıçı cinayətkarlar arasında olan dialoqları daha canlı təsvirini yaratmaq üçün arqo və jarqonlardan istifadə etmişdir. Məsələn, "Brilyant məsələsi" povestində barıq-alverçi, şestoy-milis işçisi, siçan-pul, məclis-qumar, "Qara Volqa" romanında isə kamen-qalava- daş-baş, paraxod-gəmi, cayıl-cahıl, podarkə-hədiyyə, qurd-pul, ülgüc-bıçaq, vışkə- güllələnmək, milton – milis işçisi və s. kimi nümunə göstərmək olar. Müəllifin oğru dili barəsində bu qədər məlumatlı olmasının səbəbi onun cinayətkarlar ilə yaxından görüşməsi və istintaqlarda iştirakı ilə bağlıdır.

Cəmşid Əmirov detektiv əsərlərində psixoanalizdən istifadə edərək obrazların uşaqlıq travmalarını, ailə mühitini və daxili təbbəddülatları təsvir etmişdir. "Sahil əməliyyatı" povestində cinayətkar Vasili və freyleyn Luizanın, "Brilyant məsələsi" əsərində cibgir Rantikin, qumarbaz Ağaəlinin, inək oğrusu İbadın, "Qara Volqa" romanında anaşa qurbanı Viktoriyanın, Pəncəli Aslanın, qatil Marqaritanın, palto oğrusu Heydərəlinin, "Vətəndən uzaqlarda" romanında Mişa Durnayevin ailədən gələn travmalarından bəhs edilmişdir.

Tədqiqat işinin bu fəslində əldə edilən əsas elmi nəticələr aşağıdakı məqalələrdə öz əksini tapmışdır[22].

---

[22] Lətifli, S.B. Cəmşid Əmirovun Sahil əməliyyatı povestinin ideya-məzmun və bədii strukturuna bir baxış. KARABAGH I İnternational Congress of Modern Studies in Social and Human Sciences June 17-19, 2021/ Karabagh Azerbaijan. s.268-272.; Cəmşid Əmirovun "Qara Volqa" romanının bədii strukturu. Azərbaycanşünaslığın aktual problemləri, XIII Beynəlxalq elm-praktiki konfrans materialları, 4-5 may, 2022-ci il. Bakı Slavyan Universiteti. s.229-232. ; Cəmşid Əmirovun "Olub, olub" povesti detektiv nəsrin bədii nümunəsi kimi. Filologiya və sənətşünaslıq, 2023, № 1. s.91-95 ; Cəmşid Əmirov yaradıcılığında psixologizm. Poetika.izm, 2024, № 1. s.156-161. Cemşid Emirov'un "Olub, Olub" Hikayesinde Polisiye Düzyazının İç Tipolojisi. II. Uluslararası bilim ve yazı dili olarak türkçe sempozyumu. 18-20 Mayıs, 2024. s.663-668; Detektiv nəsrdə müharibə mövzusu (Kemel Tokayev və Cəmşid Əmirovun yaradıcılığı əsasında). Globallashuv davrıda turkıy tıllar ıntegratsıyası" mavzusidagi xalqaro ilmiy-amaliy konferensiyaning. 24 May, Navoiy 2024, 24 may. s.148-150

Dissertasiyanın “**Cəmşid Əmirov yaradıcılığının sənətkarlıq xüsusiyyətləri”** adlı üçüncü fəsli üç paraqrafdan ibarətdir.

Bu fəslin **“Detektiv mətnin struktur xüsusiyyətləri və müəllif fərdiliyi”** adlı paraqrafında detektiv əsərlərin yazılmasında vacib olan prinsip və qaydalarla bağlı Stefen Van Dayn, Ronald Noks, Gilbert Çestertonun elmi baxışları təhlilə cəlb olunmuş, Cəmşid Əmirovun povest və romanlarının mövzu və ideyası, detektiv xüsusiyyətləri ətraflı şəkildə araşdırılmışdır. Yazıçının əsərlərinin strukturu müəyyən edilmiş prinsiplər əsasında əhatəli incələnmiş və bu təhlil vasitəsilə onun fərdi üslubu müəyyənləşdirilmişdir. Eyni zamanda, Cəmşid Əmirovun yaradıcılığı dünya və Azərbaycan ədəbiyyatının digər detektiv nəsrin nümayəndələrinin əsərləri ilə müqayisə edilmişdir. Bu müqayisə Cəmşid Əmirovun yaradıcılığının xüsusiyyətlərini daha aydın göstərməklə yanaşı, onun ədəbiyyatdakı mövqeyini həm milli, həm də beynəlxalq kontekstdə qiymətləndirməyə imkan vermişdir.

Detektiv mövzuda qələmə alınmış bədii əsərlər özünəməxsus struktura malikdir: müəmmalı bir cinayətin aşkar edilməsi, faktların məntiqi təhlil ilə izlənilməsi, ədalət və qanunsuzluq arasında toqquşma, haqqın bərpası. Cəmşid Əmirov əsərlərini casus və polis detektivi mövzusunda qələmə almışdır. Yazıçının əsərlərinin mövzu dairəsi çoxşaxəlidir və cəmiyyətin müxtəlif aspektlərini əhatə edir. Cəmşid Əmirov diqqəti yalnız cinayətlərin həllinə deyil, həm də mənəvi-əxlaqi məsələlərə də yönəltmişdir. Onun yaradıcılığında detektiv və müharibə mövzuları aparıcıdır. “Sahil əməliyyatı” və “Tək əldən səs çıxar” povestləri, “Vətəndən uzaqlarda” və “Mənim ilk məhəbbətim” romanları müharibə və casus detektiv mövzusunda, “Qara Volqa”, “Brilyant məsələsi”, “Olub,olub”, “Şəhər yatarkən” əsərləri isə polis detektivi mövzusunda qələmə alınmışdır.

Bu fəslin “**Cəmşid Əmirovun detektiv əsərlərinin əsas obrazlar sistemi (müstəntiq, cinayətkar, qurban və köməkçi obrazlar)”** adlanan paraqrafında ədibin detektiv əsərlərində əsas obrazlar – müstəntiq, cinayətkar, qurban və köməkçi personajların funksiyaları və xarakter xüsusiyyətləri araşdırılmışdır. Detektiv

əsərlərdə qoyulan ictimai problemlərin çatdırılmasında obrazlar mühüm rol oynayır.

Müstəntiq obrazı ədalətin təminatçısı kimi ön plana çıxır, cinayətkar süjetin əsas gərginliyini yaradır, qurban obrazı hadisələrin motivasiyasını və emosional yükünü daşıyır, köməkçi obrazlar isə hadisələrin inkişafında və müstəntiqin işində vacib rol oynayır. Bu obrazlar bir-biri ilə əlaqəli şəkildə əsərin quruluşunu və tematikasını formalaşdırır. Cəmşid Əmirovun əsərlərinin özünəməxsus cəhətlərindən biri də cinayətin izlərinin aşkar edilməsində hüquq-mühafizə orqanlarının birgə fəaliyyəti əsas rol oynayır. “Sahil əməliyyatı” povestində müstəntiq Oqtay Çingizov, kapitan Adil Cabbarov, leytenant Aleksandr Denisov, “Brilyant məsələsi” əsərində müstəntiq Əli Rəsulov, leytenant Svetlana, Cabir Rzayev, ekspert Səmayə Hacıyeva, polkovnik Talıb İsayev, Adilə Paşayeva, “Qara Volqa” romanında müstəntiq Adil Cavanşirov, Əli Rüstəmov, leytenant Dilarə Bayramova, kapitan Rasim Kərimov, “Olub-olub” povestində Hacı Əzimov, “Şəhər yatarkən” əsərində müstəntiq Rafiq Tağıyev, Məhərrəm İbrahimov, Oqtay Əhmədov və kapitan Hidayət Mirzəyev, podpolkovnik Tariyel Məmmədov, kiçik leytenant Arzu Yusifova, “Mənim ilk məhəbbətim” romanında Oqtay Çingizov, Aleksandr Denisenko və başqaları istintaq prosesində fəal iştirak etmişlər.

Cəmşid Əmirovun detektiv əsərlərindəki müstəntiq obrazlarının özünəməxsus xarakterik xüsusiyyətləri vardır: analitik düşüncə, dəqiq müşahidə qabiliyyəti, diqqətli və səbirli olmaq, prinsipiallıq və dürüstlük, insanlarla işləmək bacarığı, psixoloji analiz, faktları müqayisə etmək və düzgün nəticələr əldə etmək alışqanlığı, gərgin situasiyalarda qərar vermək və güclü təşkilatçılıq təcrübəsi.

Yazıçının əsərlərindəki cinayətkar obrazlar, əsasən, əlverişsiz ailə mühiti, ictimai təcridolunma və neqativ təsirli dəstələrə qoşulma kimi amillərin təsirində yetişmiş şəxslərdir. Cinayətkarlar oğurluq, dələduzluq, casusluq, təşkilatlanmış cinayət və kriminal şəbəkələrlə əlaqəsi olan şəxslərdir. Onlar sosial və psixoloji səbəblərin təsiri ilə cəmiyyətlə ziddiyyət yaşayan, ictimai qurumlara uyğunlaşmaqda çətinlik çəkən fərdlər kimi xarakterizə olunur.

Ədibin yaratdığı köməkçi obrazlar da cinayət izlərinin aşkarlanmasında mühüm rol oynayır. “Brilyant məsələsi” povestində bağ gözətçisi Mirzə Məlik cinayətkar Yədullanın yaxalanmasında, “Qara Volqa” romanında Leyla Bədirxanova fırıldaqçı montyor Yaşanın tapılmasında, “Olub-olub” povestində Sərvinaz Haşımova qatilin kimliyinin aşkar edilməsində fəal iştirak edən köməkçi obrazlardır.

Detektiv əsərlərdə qurban obrazı hadisənin mərkəzində olub cinayətə məruz qalan şəxsdir. Yazıçının yaratdığı qurban obrazları qətlə yetirilənlər – Vladimir Solovyev, İnqa Şmigelskaya və ailəsi, Sərdar Məcidov və ailəsi, Laləzar İsmayılova, bəziləri isə qarət olunan – Revekka Solomonova, Natalya Kryuçko, Qalina Yermdayeva, Layma Laqunaviç, digərləri isə zorakılıq olunan – Yaşa, Aliyə, Əbdülqəni, Vaqif Süleymanov, İbad və Viktoriya Sinelnikovadır.

**“Yazıçının əsərlərində ləqəblərin funksiyası”** adlanan paraqrafda onomastik vahidlərin ədəbiyyatdakı yeri və rolu, ləqəblərin detektiv əsərlərdə funksiyası, cinayətkarların şifrəli danışığı, müxtəlif parolların detektiv əsərlərdə funksionallığı tədqiq olunmuşdur.

Detektiv mövzuda qələmə alınmış əsərlərdə ləqəblər obrazların xarakterini və sosial mövqeyini ifadə etməkdə mühüm rol oynayır, əsərin ideya və mövzusunun çatdırılmasında xüsusi vasitə kimi çıxış edir. Qozbel Bürsəli, Qızıl diş Kolya, Qanlı tutuquşu Firtçe, Pəncəli Aslan, Qızılbarmaq Rantik və s. ləqəblər əsəri zənginləşdirmiş, onu parlaq və yaddaqalan etmişdir. Cinayətkarların ləqəb və parolları kriminal aləmin nümayəndələrinin subkulturasının mühüm elementidir, bu, onların dünyagörüşünü başa düşmək üçün açardır. Cəmşid Əmirovun əsərlərində istifadə olunan ləqəblər, dilçi alimlərin – Musa Adilov, Aydın Paşayev və Afad Qurbanovun onomastik vahidlərin təsnifatı və funksional bölgüsü əsasında geniş şəkildə qruplaşdırılmışdır. Yazıçının əsərlərində casus və cinayətkarlar bir-birlərini tanımaq və gizli informasiyaları çatdırmaq üçün parollardan istifadə etmişdir. Şifrəli danışığın məqsədi, qarşı tərəfin kimliyini təsdiqləmək və əlaqənin gizliliyini təmin etməkdir.

Tədqiqat işinin bu fəslində əldə edilən əsas elmi nəticələr aşağıdakı məqalələrdə öz əksini tapmışdır[23].

Dissertasiya işinin **Nəticə** hissəsində tədqiqat boyu aparılan araşdırmalardan əldə olunan elmi-nəzəri qənaətlər aşağıdakı qaydada ümumiləşdirilmişdir:

– Aparılan təhlillər göstərir ki, dünya və Azərbaycan ədəbiyyatında detektiv nəsrin yaranması və inkişafı dövrün sosial-siyasi və tarixi şəraiti ilə sıx bağlıdır. Dünya və Azərbaycan ədəbiyyatında detektiv elementlərin ilkin izlərinə dini mətnlərdə, mifologiya və folklor nümunələrində rast gəlinir ki, bu da janrın köklərinin qədim və çoxşaxəli olduğunu sübut edir.
– Təhlillər göstərir ki, Azərbaycan ədəbiyyatında detektiv nəsr Cəmşid Əmirovun fəaliyyəti ilə milli məzmun qazanaraq formalaşmağa başlamışdır.
– Cəmşid Əmirovun həyat və yaradıcılığının sistemli tədqiqi yazıçının Azərbaycan detektiv nəsrinin inkişafındakı rolunu daha aydın göstərmişdir.

[23]Lətifli, S.B.Cəmşid Əmirovun Qara Volqa romanında detektiv nəsrin xüsusiyyətləri. KARABAGH II İnternational Congress of Applied Sciences Azerbaijan National Academy of Science. 8-10 November, 2021 Azerbaijan. s.308-314; Cəmşid Əmirovun Sahil əməliyyatı povestinin obrazlar sistemi. I Beynəlxalq Humanitar və İctimai elmlərin əsasları konfransının materialları. Bakı, 24 dekabr, 2021. İmpakt faktor.0.542. s. 213-216; Cəmşid əmirovun “Brilyant məsələsi” povestinin ideyası və obrazlar sistemi. Таълимда Филологияни Ривожлантиришнинг Глобал Масалалари» Мавзусидаги Халқаро Илмий Амалий Анжумани Материаллари Toshkent. 2022. s.257-259; Cəmşid Əmirovun “Brilyant məsələsi” və Kemel Tokayevin “Damğalı qızıl” povestlərində polis detektivinin əlamətləri. Müqayisəli ədəbiyyatşünaslıq, 2023, N:1. S. 105-109; Cəmşid Əmirovun “Brilyant məsələsi” povesti detektiv nəsrin bədii nümunəsi kimi. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci il ildönümünə həsr olunmuş “Qlobal çağırışlar və perspektivlər” mövzusunda doktorantların və gənc tədqiqatçıların Respublika elmi-praktiki konfransı. Qərbi Kaspi Univeriteti. 22 may, 2024-cü il. s.105-108; Jamshid Amirov's novel "My true love" as a literary example of a spy detective. Publisher.agency: Proceedings of the 6th International Scientific Conference «Modern Scientific Method» (April 18-19, 2024). Vienna, Austria, 2024. 183p. p. 114-117.

– Yazıçının ilk dəfə publisistik fəaliyyətinin işıqlandırılması əsərlərindəki ideya və bədii xüsusiyyətlərin formalaşmasında mühüm rol oynadığını göstərmişdir. Ədibin publisistik yaradıcılığında xalqın mənafeyinin müdafiəsi, sosial ədalətin bərqərar olunması və insanların hüquqlarının qorunması əsas istiqamət kimi daim ön planda olmuşdur.
– Tədqiqata ilk dəfə cəlb olunan "Tək əldən səs çıxar", "Olub, olub" povestləri və "Vətəndən uzaqlarda" romanı Azərbaycan ədəbiyyatşünaslığında mühüm əhəmiyyətə malik olan detektiv əsərlərdir. Bu əsərlərin tədqiqi yazıçının detektiv yaradıcılığı haqqında əsaslı fikir deməyə imkan yaratmışdır.
– Aparılan tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, detektiv əsərlərdə obrazların psixoloji təsviri əsas rol oynayır. Cəmşid Əmirovun detektiv əsərləri yalnız cinayət hadisələrinin təsviri ilə məhdudlaşmır, həmçinin bu hadisələrin arxasında dayanan sosial – psixoloji səbəbləri də göstərilir. Müəllifin yaradıcılığında sosial mühitin insan davranışına təsiri, fərdi psixologiyanın cəmiyyətlə toqquşması və mənəvi dəyərlərin aşınması kimi mövzular əsas yer tutur. O, cinayət işini təkcə hüquq müstəvisindən deyil, həm də ictimai-əxlaqi kontekstdə təhlil edərək, oxucunu düşünməyə və nəticə çıxarmağa sövq edir.
– Yazıçı detektiv əsərlərində portret, daxili monoloq, dialoq, peyzaj və psixoanaliz kimi vasitələrdən sistemli və məqsədyönlü şəkildə istifadə etmişdir.
– Cəmşid Əmirovun əsərləri dünya ədəbiyyatı nümunələri ilə müqayisəli təhlil olunaraq bir sıra paralellərin olduğu qənaətinə gəlinmişdir. Yazıçının əsərləri yerli və dünya detektiv ədəbiyyatı ilə müqayisə olunaraq həm ortaq bədii xüsusiyyətlər, həm də fərqli yaradıcılıq yanaşmaları müəyyən edilmişdir.
– Yazıçının əsərləri struktur baxımından klassik detektivin prinsiplərinə əsaslanır, müəllif fərdiliyi isə süjetin qurulmasında, obrazların seçilməsində, istintaq prosesinin

təsvirində, dil-üslub xüsusiyyətlərinin istifadəsində aydın şəkildə seçilir.

- Yazıçının polis detektivi mövzusunda yazılmış əsərlərində süjet xətti əsasən konkret cinayətin baş verməsi, onun hüquqi müstəvidə araşdırılması və cinayətkarın aşkara çıxarılması üzərində qurulursa, casus detektivində isə hadisələr daha geniş, çox zaman beynəlxalq miqyasda təqdim olunur. Bu zaman siyasi intriqalar, kəşfiyyat fəaliyyətləri, ideoloji qarşıdurmalar və gizli əməliyyatların təsvirinə daha geniş yer verilir.
- Cəmşid Əmirovun yaradıcılığında müharibə mövzusu da xüsusi yer tutur. Yazıçının "Sahil əməliyyatı", "Tək əldən səs çıxar", "Mənim ilk məhəbbətim" və "Vətəndən uzaqlarda" əsərlərində vətən uğrunda mübarizə aparan qəhrəmanların fədakarlığı və müharibənin insan taleyinə təsiri bədii şəkildə əks etdirilmişdir.
- Yazıçının detektiv əsərlərində əsas obrazlar sistemi – müstəntiq, cinayətkar, qurban və köməkçi obrazlar və onların ləqəbləri ilk dəfə sistemli şəkildə araşdırılmışdır. Təhlillər nəticəsində yazıçının detektiv əsərlərindəki obrazların funksional rolu, xarakterik xüsusiyyətləri və ləqəblərin simvolik yükü elmi şəkildə əsaslandırılmışdır.

Bütün bu təhlillər əsasında belə nəticəyə gəlmək olar ki, Cəmşid Əmirovun yaradıcılığı Azərbaycan ədəbiyyatında detektiv nəsrin formalaşmasında və inkişafında mühüm rol oynamışdır. Onun fərdi üslubu və mövzuya yanaşma tərzi, detektiv nəsrin bədii-estetik imkanlarını genişləndirmiş, insan psixologiyası, sosial münasibətlər və mənəvi dilemmanın təsviri baxımından çoxşaxəli müstəviyə yüksəltmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin dərc olunmuş aşağıdakı elmi işlərində öz əksini tapmışdır:**


1. Lətifli, S. Cəmşid Əmirovun Sahil əməliyyatı povestinin ideya-məzmun və bədii strukturuna bir baxış // KARABAGH I İnternational Congress of Modern Studies in Social and Human Sciences, – Karabagh/Azerbaijan – 17-19 june, – 2021, – s.268-272.
2. Lətifli, S. Azərbaycan ədəbiyyatında detektiv nəsrin formalaşmasına bir nəzər // Bakı: Dil və ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal, – 2021. №3(117), – s.529-531.
3. Lətifli, S. Cəmşid Əmirovun Qara Volqa romanında detektiv nəsrin xüsusiyyətləri // KARABAGH II İnternational Congress of Applied Sciences Azerbaijan National Academy of Science, Karabagh/Azerbaijan – 8-10 November, – 2021,– s.308-314.
4. Lətifli, S. Dünya ədəbiyyatında detektiv nəsrin tarixi mərhələlərinə elmi-nəzəri baxış // Bakı: Dil və ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal, – 2022. №3(120), – s.206-209.
5. Lətifli, S. Cəmşid Əmirovun Sahil əməliyyatı povestinin obrazlar sistemi // I Beynəlxalq Humanitar və İctimai elmlərin əsasları konfransının materialları, – Bakı, – 24 dekabr, – 2021, – s. 213-216.
6. Lətifli, S. Cəmşid əmirovun "Brilyant məsələsi" povestinin ideyası və obrazlar sistemi // Таълимда Филологияни Ривожлантиришнинг Глобал Масалалари» Мавзусидаги Халқаро Илмий Амалий Анжумани Материаллари, – Toshkent,– 2022, – s.257-259.
7. Lətifli, S. Cəmşid Əmirovun "Olub, olub" povesti detektiv nəsrin bədii nümunəsi kimi // – Bakı: Filologiya və sənətşünaslıq, – 2023. – № 1. s.91-95
8. Lətifli, S. Cəmşid Əmirovun "Brilyant məsələsi" və Kemel Tokayevin "Damğalı qızıl" povestlərində polis detektivinin əlamətləri // – Bakı: Müqayisəli ədəbiyyatşünaslıq, – 2023. №1, – s. 105-109.
9. Letifli, S. Sıgns of Jamshıd Amırov`s detectıve // – Таврыйськ: Вчені записки ТНУ імені В. І. Вернадського. Серія: Філологія. Журналістика, – 2023. Том 34 (73) № 5, – с.174-178.

10. Lətifli, S. Cəmşid Əmirovun “Sahil əməliyyatı” və Kemel Tokayevin “Sirli iz” povestlərinin bədii xüsusiyyətləri // – Bakı: Müqayisəli ədəbiyyatşünaslıq, – 2024. – №1. – s. 41-47.
11. Lətifli, S. Cəmşid Əmirov detektiv nəsrin nümayəndəsi kimi // – Bakı: Azərbaycan ədəbiyyatşünaslığı, – 2024. №1, – s.121-127.
12. Lətifli, S. Cəmşid Əmirov yaradıcılığında psixologizm // – Bakı: Poetika.izm, – 2024. – № 1, – s.156-161.
13. Letifli, S. Jamshid Amirov's novel "My true love" as a literary example of a spy detective // Proceedings of the 6th International Scientific Conference Modern Scientific Method, – Vienna, Austria, – 18-19 april– 2024, – p. 114-117.
14. Letifli, S. Cemşid Emirov'un “Olub, Olub” Hikayesinde Polisiye Düzyazının İç Tipolojisi // II. Uluslararası bilim ve yazı dili olarak türkçe sempozyumu, – İstanbul, 18-20 Mayıs, –2024, – s.663-668
15. Lətifli, S. Cəmşid Əmirovun “Brilyant məsələsi” povesti detektiv nəsrin bədii nümunəsi kimi // Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci il ildönümünə həsr olunmuş “Qlobal çağırışlar və perspektivlər” mövzusunda doktorantların və gənc tədqiqatçıların Respublika elmi-praktiki konfransı, – Bakı, Qərbi Kaspi Univeriteti. – 22 may, – 2024, – s.105-108
16. Lətifli, S. Detektiv nəsrdə müharibə mövzusu (Kemel Tokayev və Cəmşid Əmirovun yaradıcılığı əsasında). Globallashuv davrıda turkıy tıllar ıntegratsıyası” mavzusidagi xalqaro ilmiy-amaliy konferensiyaning. 24 May, Navoiy 2024, 24 may. s.148-150

Dissertasiya işinin müdafiəsi 29 oktyabr 2025-ci il tarixində saat 15:00-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az-1073, Bakı ş., H.Cavid pr. 117, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. IV mərtəbə, Elektron Akt zalı.

Dissertasiya ilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 26 sentyabr 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 25.09.2025.

Kağızın formatı: A5

Həcm: 36540

Tiraj: 100